

# Müqəddəs səfər

**2017-ci ildə böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyi qeyd olunanda hamımızın ürəyindən nisgilli bir duyğu keçmişdi: "Bu yubiley ilində kaş Vaqifin məqbərəsini ziyarət edib, ulu sənətkara ehtiramımızı orada da ifadə edə biləydik".**

Ancaq o zaman Şuşamız da, Vaqifin məqbərəsi də işğal altındaydı. Mənfur ermənilərin vəhşi xislətinin tarixi-mədəni abidələrimizdən, o sıradan da M.P.Vaqifin məqbərəsindən yan keçmədiyini bilir və qisas gününü səbirsizliklə gözləyirdik.

Nəhayət, 2020-ci ilin mübarək payızı gəldi. Ali Baş Komandanımızın cəsarəti və qətiyyəti, yenilməzliyi ilə dünyaya səs salan Azərbaycan ordusunun qüdrəti, xalqımızın sarsılmaz ruhu mürtəd düşmənə cəmi 44 gün çəkən savaş meydanında tarixi dərs verdi. Ordumuz təkcə ermənilərin özünə yox, həm də onları himayə edən dünyanın qaraüzlü qara qüvvələrinə elə dəhşətli hərbi zərbələr vurdu ki, bu misilsiz Azərbaycan savaşının səs-sədası uzun zaman tarixin yaddaşında unudulmaz möhür kimi qalacaq.

Ötən ilin noyabrında Böyük Zəfərin zirvə nöqtəsinə yetişdik: Şuşamız azad olundu. Vaqifin məqbərəsi, Pənah xanın, Natəvanın, Üzeyir bəyin, Bülbülün ruhu dərindən nəfəs aldı...

Bir il öncə Füzulidən, Ağdamdan Şuşaya doğru şığıyan Azərbaycan əsgərlərinin ayaq səslərini, hay-haray dolu dəli nərələrini sinəsinə çəkən doğma torpaqlarımız boyu indi yüz kilometrdən də çox uzanan qürurverici "Zəfər yolu" çəkilib. Bu yol və onun çevrəsi boyunca qanını və canını Vətən yolunda qurban eləyən əsgərlərimizin fədakarlığının qarşısında hər zaman baş əyəcəyik.

Şuşa şəhərinin girişindəki on metrlərlə yüksəyə dikələn sıldırım qayaları qəhrəman Azərbaycan oğullarının əfsanəvi qüdrətlə adlayıb keçməsi insanda ağılalmaz bir heyrət yaradır. Əslində, Şuşanın bu fəthi dünyanın nadir hərbi əməliyyatlarından biridir. Bu qüruru yaşamaq adamın ruhunu səmada - Şuşanın göylərində qanadlandırır və kövrəldir.

Mən Şuşaya daxil olanda illərdən bəri əhd elədiyim bir vacib əməli gerçəkləşdirmək niyyətindəydim. Tarixi qürur yerimiz olan bu şəhərin daşını-torpağını bağrıma basıb öpmək istəyirdim. Yanından keçdiyimiz bir divarı göstərib dedilər: "Burada şiddətli döyüşlər gedib, əsgərlərimizin qan izlərinin yerləri hələ də görünür..."

Maşından düşdüm və o müqəddəs divarı dönə-dönə öpdüm və öz əhdimə qovuşmuş oldum...

Şuşa hər zaman Azərbaycan üzüyünün qaşı kimi qiymətləndirilib. Azadlığa çıxdıqdan sonra möhtərəm Prezidentimiz İlham Əliyev Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etməklə bunu bir daha bütün dünyaya görk elədi.

Ötən qısa zaman içində Şuşaya möhtəşəm "Zəfər yolu"nun çəkilməsi, Vaqifin məqbərəsinin bərpa olunması, Bülbülün ev-muzeyinin yenidən qurulması, tarixi-memarlıq abidələrinin - məscidlərin, qədim malikanələrin əvvəlki görkəminə qaytarılması böyük hünərdir. Burada hər gün, hər saat nəhəng işlər gedir, tikinti-quruculuq yolundakı çalışmalar durmadan davam edir. Şuşa yenidən doğulur və möhtəşəm bir tarixi görüntü qazanaraq dirçəlir.

Vaqifin məqbərəsi yenidən poeziyasevərləri, şair və yazıçıları, ziyalıları isti bir nəfəslə qarşıladı. Vaqif Poeziya Günləri otuz üç il sona bir daha ana dilimizin və milli ruhumuzun söz meydanı oldu.

Şuşaya gəldiyim gün "Gəlmişəm, Şuşam, gəlmişəm" adlı bir şeir gəldi ruhuma. Bilmirəm, bəlkə bu, yeni Şuşada yazılmış ilk şeir idi:

Dağıt başından dumanı,
Gəlmişəm, Şuşam, gəlmişəm.
Qalmasın ahın-amanın,
Gəlmişəm, Şuşam, gəlmişəm.

Top-tüfəngim, yarağımla,
Hesab çəkmişəm yağımla.
Ay-ulduzlu bayrağımla
Gəlmişəm, Şuşam, gəlmişəm.

Salam olsun ordumuza,-
Qürur verdi yurdumuza.
Qalamıza-burcumuza
Gəlmişəm, Şuşam, gəlmişəm.

Yolu açdı igidlərim,-
Qazilərim, şəhidlərim,
Ər oğlu mücahidlərim,
Gəlmişəm, Şuşam, gəlmişəm.

"Allah-əkbər" sədasıyla,
"Can Qarabağ!" nidasıyla.
Koroğlunun havasıyla
Gəlmişəm, Şuşam, gəlmişəm.

Haqq-tala itaətinə,
Pir-ocaq ibadətinə,-
Vaqifin ziyarətinə
Gəlmişəm, Şuşam, gəlmişəm.

Qarabağ bizim yerimiz,
Meydandayıq hər birimiz.
Baş Komandan öndərimiz,
Gəlmişəm, Şuşam, gəlmişəm,
Gəlmişik, Şuşam, gəlmişik.

***Məhərrəm QASIMLI,***
***Əməkdar elm xadimi,***
***Dövlət mükafatı laureatı, professor***

Azərbaycan.- 2021.- 5 sentyabr.- S.3.